UOT 78.03

**İRADƏ VƏLİYEVA**

# MUSİQİ, İNSAN TƏFƏKÜRÜ VƏ ONUN ƏTRAF MÜHİTDƏ ROLU

*Məqalədə musiqinin gözəl qəlb oxşayan səslərin xəzinəsi olmasından bəhs olunur. Musiqini* müxtəlif alimlərin fikirlərinə əsaslansaq irəli sürdükləri nəzəriyyələrdən, əmələ gəlməsinin və əmək proesi ilə bağlı olduğunu göstərən nəzəriyyədir. *Musiqi təkcə insanlara deyil, digər canlılara və bitkilərə güclü təsir göstərmək qabiliyyətinə malikdir. Bu elmdə alətlərinin yaranması və inkişafı prosesi haqqında fikirlər irəli sürülmüş və mülahizələr aparılmışdır. Musiqi alətlərinin tarixi "Kitabi-Dədə Qorduq" dövrünə gedib çıxır. Belə olan halda Naxçıvanda musiqinin yaranması yeddinci minnillik, bəlkə də ondan da artıqdır.*

**Açar sözlər:** *Xalq musiqisi, musiqidə inam, ritm, qeyri musiqi səsləri, musiqi alətləri*

Musiqi! Gözəl qəlb oxşayan səslər xəzinəsidir. Sirlər xəzinəsidir. Doğurdan da musiqini sirlər xəzinəsi adlandırmaq olar. O təkcə insanlara deyil digər canlılara və bitkilərə belə güclü təsir göstərmə qabiliyyətinə malikdir. Bəs musiqi necə yaranmışdır? Dünyanın ən böyük filosoflarının , musiqi xadimlərini və tədqiqatçılarını həmişə məhz bu sual düşündürmüşdür. Xalq musiqisinin guya allahlar tərəfindən insanlara bəxş edilidiyi haqqında müxtəlif əfsanələr yaradılmışdır. Elmi cəhətdən qəbul olunmasada lakin bütün hələ qədim dövürlərdə insanların musiqiyə nə qədər böyük ehtiramla yanaşdıqlarını bir daha sübüt edilmişdir.Alimlər musiqinin yaranması haqqında bir çox maraqlı nəzəriyyələr irəl sürmüşlər. Bu nəzəriyyələrdən biri bu idi ki musiqinin yaradıcısı təbiətdir. Alimlər belə hesab etmişdilər ki , insanlar təbiətdəki bir çox hadisələri: suyun şırıltısı, göyün gurultusu, su, küləyin səsi, yarpağın xısıltısı və s. kimi nəticələrdə əmələ gələn səslər ayrı-ayrı müəyyən yüksəkliyə malik olan musiqi səsləri əmələ gəlmişdir.

Görkəmli ingilis alimi Herbet Spenser də Platon nəzəriyyəsini əsas tutur.1857-ci ildə yazdığı "Musiqinin əmələ gəlməsi və vəzifəsi" adlı əsərində musiqinin nitq nəticəsindən əmələ gəldiyni irəli sürür. Beləki insan əvvəlcə danışığı öyrənmiş sonra isə oxumuşdur.

Musiqinin yaranması haqqında nəzəriyyələrdən biridə Darvin nəzəriyyəsidir. Darvin belə hesab etmişdir ki, insanların əcdadları bir birlərinə öz arzularını istəklərini müəyyən yüksəkliyə malik musiqi səsləri vasitəsi ilə bildirmişdilər. Bir çox alimlər o cümlədən fransız musiqişünası Jül Kanbarje musiqinin yaranma səbəbini insanların həyat şəraiti ilə bağlamağa çalışır. Musiqi insanlar arasında geniş yer tutur və sehirbazlığın ən güclü və təsiredici vasitələrdən biridir.

Musiqi inam, din, və.s. insan cəmiyyəti inkişafının müəyyən dərəcədə mərhələsində yaranmışdır. Musiqinin yaranması haqqında müəyyən real nəzəriyyə irəli sürənlərdən alman iqtisadçısı Karl Byuxıl və Vyana musiqişünası Rixard Ballaşeki göstərmək lazımdır.Hər iki tədqiqatçı musiqinin yaranmasını ictimai iqtisadi amillərlə bağlayırlara. Karl Ballaşeki özünün 1896-cı ildə yazdığı " İş və ritm" əsərində musiqi ritminin əmələ gəlməsində əmək prosesindəki ritimlə bağlayır.

O əsərində göstərir ki , insanlar müəyyən iş görərkən bir yerdə oxuyular. Bu vaxt mahnı ilə birgə musiqi yaranır. Rexard Vallaşeki " Musiqinin başlanğıcı " adlı əsərində musiqi ritmini rəqs vaxtı yaratdığı fikiri irəli sürür. Dövründəki rəqslər öz məzmunlarına görə vəhşi heyvanların adlandırılması və döyüş səhnələri ilə əlaqələndirir. Bu vaxt ifa edilən döyüş və ov oyunları rəqsləri və pantomimaları isə musiqini möhkəmləndirilməsinə kömək edir. R.Valleşenin fikirinə görə musiqi ritim ilk qəti müəyyən edilmiş melodiya, ilk xor oxuma, ilk ansanbl məhz

bu vaxtlar yaradılmışdır.

R.Vallaşeki rəqslərdən təkcə ritm deyil həmdə tonu səs yüksəkliyinin götürürdü.Onun fikirinə görə hər hansı bir melodiyanı ritmin vurğuları əmələ gətirmişdir.

Biz yuxarıda müxtəlif alimlərin musiqinin yaranması haqqında irəli sürdükləri nəzəriyyələrdən bir neçəsi ilə sizi tanış etdik. Buradan ən inandırıcıları musiqinin əmələ gəlməsinin əmək prosesi ilə bağlı olduğunu göstərən nəzəriyyədir. Çünki həqiqətəndə insan cəmiyyətin yarandığı vaxtdan şüur, dil, fikir, əmək prosesi ilə əlaqədar əmələ gəlmiş və onlarla birlikdə inkişaf etmişdir.Musiqi alətlərinin insanların həyatında rolu böyükdür.

Hər hansı musiqi əsərinin müvəffəqiyyət qazanıb geniş dinləyicilər tərəfindən rəğbətlə qarşılanmasında melodiyasından başqa həmdə musiqi alətlərinin rolu xüsusi ilə böyükdür.

Ümumiyyətlə götürdükdə dünya miqyasıyasında mindən artıq müxtəlif musiqi alətləri mövcutdur.

## ƏDƏBİYYAT

1.Ə.Səfərov Azərbaycan musiqi elmi Bakı 1998
2.Rəfail Kərimov. Naxçıvanın musiqi mədəniyyəti tarixindən Bakı 2012.
3.Musiqi dünyası. 2007.

***Naxçıvan Dövlət Universitetinin müəllimi***
***e-mail: iradevelizade76@gmail.com***

**İrada Valiyeva**

## MUSIC, HUMAN THINKING, AND ITS ROLE IN THE ENVIRONMENT

The article talks about the fact that music is a treasure of beautiful sounds that inspire the heart. Based on the opinions of various scholars, music is a theory associated with advanced theories, creation and labor project. Music is capable of exerting a strong influence not only on people, but also on other creatures and plants. Ideas were put forward and considerations were held on the process of creating and developing these scientific instruments. The history of musical instruments goes back to the Kitabi-Dede Korgud era. In this case, the creation of music in Nakhchivan dates back to the seventh millennium, possibly more..

**Keywords:** *folk music, faith in music, rhythm, non-musical instruments, musical instruments.*

**Ирада Велиева**

## МУЗЫКА, ЧЕЛОВЕЧЕСКОЕ МЫШЛЕНИЕ И ЕГО РОЛЬ В ОКРУЖАЮЩЕЙ СРЕДЕ

В статье рассказывается о том, что музыка-это сокровище прекрасных звуков, которые воодущевляют сердце. Основываясь на мнении различных ученых, музыка-это теория, связаная с выдвинутыми теориями, созданием и трудовым проектом. Музыка способна оказывать сильное влияние не только на людей, но и на другие существа и растения. Были выдвинуты идеи и проведены соображения о процессе создания и развития этих научных инструментов. История музыкальных инструментов уходит в эпоху "Ки-

таби-Деде Коргуд". В таком случае создание музыки в Нахчыване относится к седьмому тысячилетию, возможно и более.

**Ключевые слова:** народная музыка, вера в музыку, ритм, не-музыкальные инструменты, музыкальные инструменты.

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**Daxilolma tarixi: İkin variant 10.10.2019**
**Son variant 22.11.2019**